# AZƏRBAYCAN XALQ YARADICILIĞININ ÖYRƏNİLMƏSİNDƏ "AZƏRBAYCANİ TƏDQİQ VƏ TƏTƏBBÖ CƏMİYYƏTİ" (ATTC)'NİN ROLÜ

## The Role of "Azerbaijan Investigation and Study Society" of Studing Azerbaijan Folklore

**Akifə XƏLILOVA**[*]

***Abstract:*** *In the article is investigated the history of studing Azerbaijan folklore. The role of "Azerbaijan Investigation and Study Society" of studing Azerbaijan folklore is investigated from that point of view. The action of this "Society" studing Azerbaijan folklore is given in the article.*

***Keywords:*** *Folklore, Azerbaijan Investigation and Study Society, Action.*

Azərbaycanın elmi–mədəni həyatında mühüm xidmətləri olan qurumlardan biri "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" dir. ATTC 1923-cü ilin noyabrın 2-də təsis edilmiş, 7 il bu ad altında fəaliyyət göstərmiş, 1930- cu ildən isə tərkibi dəyişdirilərək Azərbaycan Elmi Tədqiqat İnstitutuna verilmişdir. Cəmiyyət ziyalı qrupunun təşəbbüsü ilə yaradılmış, öz işinə o dövrün çox nüfuzlu alimlərini cəlb etmişdir. Cəmiyyətin dəvəti ilə akademk V. İ. Qordlevski, akademik İ. İ. Meşşaninov, akademik V. V. Bartold, akademik A. Y. Krımski, akademik N. Y. Marr, professor A. N. Samoylov, professor N. İ. Jüze, professor İsmayıl Hikmət, professor Mehmet Fuad Köprülüzadə, V. P. Zummer, V. M. Sisoyev və b. kimi tanınmış alimlər müəyyən müddət Azərbaycanda olmuş, xalqımızın dili, tarixi, ədəbiyyatı, mədəniyyəti ilə bağlı maraqlı tədqiqatlar aparmışdılar. Dəvət olunmuş görkəmli alimlər arasında professor A. V. Baqri (1891- 1949) də olmuşdur. 32 yaşında Bakıya gəlmiş alim ömrünün qalan 26 ilini Bakıda elmi- pedaqoji fəaliyyətə həsr etmişdir. 1924-cü ildən A. V. Baqrinin adına müxtəlif mətbu orqanlarda rast gəlirik. A. Baqri ATTC-də geniş fəaliyyət göstərən alimlərdən biri olmuşdur.

[*] Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu

"Azərbaycan biblioqrafiyası" adlı məlumat kitabının hazırlanması Cəmiyyətin gördüyü dəyərli işlərdən biridir.. Qeyd edim ki, bu biblioqrafiya çox zəngin məlumat ehtiyatına malikdir. 134 müxtəlif biblioqrafik göstəricidən istifadə etməklə hazırlanmış material 1924 (I və II buraxılşlar) və 1925 (III buraxılış) ci illərdə nəşr olunmuşdur. A. V. Baqri "biblioqrafiya" da 1820 - 1923 –cü illər arasındakı böyük bir dövrün mətbuatın da Azərbaycan haqqında çap olunmuş materialları əks etdirmişdir. Cəmiyyət bu materialların hazırlanmasına 2 il (1923- 1924) vaxt sərf etmişdir. Bizim üçün daha önəmlisi odur ki, topluda Azərbaycan xalqının folkloruna aid zəngin biblioqrafik göstəricilər öz əksini tapmışdır. Üç buraxılışda gerçəkləşən bu nəşrdə sistemlilik gözlənilmişdir. "Birinci buraxılışda müəllif əsas biblioqrafik qaynaqları, cografi və səyahətlə baglı materialları toplamışdır. İkincidə Azərbaycan etnoqrafiyasına, filologiyasına, maarifinə, tarix və arxeologiyasına aid ədəbiyyat vermiş, üçüncü buraxılışda isə Azərbaycan xalq təsərrüfatına aid materialları göstərmişdir ". Alimin gördüyü bu işin istər öz dövrü üçün, istərsə də bu üçün əhəmiyyəti böyükdür. Onun tərtib etdiyi biblioqrafik əsərlərdə "inqilaba qədər çap olunmuş folklor əsərlərinin izahlı annatasiyası verilmişdir".

ATTC- in xidmətlərdən biri də burada tərtib olunan "Azərbaycan və onunla həmhüdud ölkələrin folkloru" üçcildliyidir.

Cəmiyyətin xalq ədəbiyyatına dair xüsusi məcmuəsində Qafqaz xalqları ilə birlikdə Azərbaycan xalqının da bir sıra nağıl və əfsanələri çap olunmuşdur. Buradakı nağıllar L.Q. Lopatinskinin vaxtı ilə toplamış olduğu materiallar əsasında tərtib edilmişdir. Məcmuənin üç cildinin birincisi bütünlüklə, ikinci cildin bir hissəsi Azərbaycan xalq ədəbiyyatı nümunələrindən ibarətdir.

P.Əfəndiyev "Azərbaycan folklorşünaslıq tarixi" adlı doktorluq dissertasiyasının dördüncü fəslini ayrıca olaraq Sovet dövrü folklorşünaslığına həsr etmiş və burada folklorşünaslığın bir elm sahəsi kimi yaranması və formalaşması məsələlərindən bəhs etmişdir. Müəllif qeyd edir ki, Sovet hakimiyyətinin ilk illərində maddi və mənəvi mədəniyyət abidələrinin, o cümlədən xalq yaradıcılığının öyrənilməsinə xüsusi diqqət verilmişdir. Bu diqqətin nəticəsində bir sıra dövlət tədbirləri həyata keçirilmişdir. Belə dövlət tədbirlərindən biri "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti" nin yaradılmasıdır.

Cəmiyyət 1923-cü ilin noyabr ayının 2-də təsis edilmişdir. Cəmiyyətin fəxri sədri Səməd ağa Ağamalıoğlu olmuşdur. Cəmiyyətin rəhbərliyində aşağıdakı şəxslər də təmsil olunmuşdular: A. N. Samoyloviç (sədr), A. R. Zifeldt (sədr müavini), V. M. Sısoev (xəzinədar), V. A. Ryumin (katib). Bunlarla yanaşı rəhbərlikdə Həbib Cəbiyev, Məhəmməd Baharlı, R. Şabanov da var idi (1, 54-55;2, 107-112).

Məlumatlardan aydın olur ki, "ilk növbədə Cəmiyyətin üç şöbəsi fəaliyyətə başlamışdır: tarix və etnoqrafiya, təbiət və iqtisadiyyat (1, 55; 3, 46).

"Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti" nin Naxçıvanda, Dağlıq Qarabağda, Gəncədə, Şəkidə və b. yerlərdə filialları var idi (4, 125).

Qısa bir zamanda "Cəmiyyət" məşhurlaşır və şöhrət qazanır. Cəmiyyətin yaranmasından iki il keçdikdən sonra o zamankı maarif komissarı M. Quluzadə öz çıxışlarından birində qürur hissi ilə demişdi ki, "Cəmiyyət" in simasında gələcək Azərbaycan Elmlər Akademiyasını görür (1, 55). Əlbəttə, bu uzaqgörənliklə söylənmiş fikir 20 il keçdikdən sonra özünü doğrultdu.

"Cəmiyyət" in tərkibində folklor məsələləri ilə professor A. V. Baqriy, H. Zeynallı, V. Xuluflu, A. Sübhanverdixanov, yazıçılardan C. Məmmədquluzadə, Ə. Haqverdiyev və b. məşğul olurdular.

"Cəmiyyət" getdikcə fəaliyyətini genişləndirir. Fəaliyyətinin üçüncü ilində öz "Xəbərlər" ini (İzvestiya) nəşr etməyə başlayır. "Xəbərlər" in ilk sayı 1925-ci ildə rus dilində çıxır. Nəşrin giriş sözündə S. Ağamalıoğlu bu sayı ilk qaranquş adlandırır (1, 55;4, 125). "Xəbərlər" in Azərbaycan dilində ilk sayı 1928-ci ildə çıxır. "Xəbərlər" in işində H. Zeynallı, Y. V. Çəmənzəminli, R. Əfəndiyev, V. Xuluflu, A. Baqriy, Ə. Abid və b. görkəmli ədəbiyyatşünas və etnoqraflar yaxından iştirak edirdilər (1, 55).

Bu illərdə Leninqraddan, Moskvadan və Kazandan Bakıya daimi işləmək və ya müəyyən bir müddət mühazirə demək üçün görkəmli sovet şərqşünasları, türkoloqları gəlir. Onlar Azərbaycanın maddi və mənəvi abidələrinin, dil və dialektlərinin öyrənilməsində, arxeoloji qazıntıların aparılmasında aktiv iştirak edirlər. Bu görkəmli alim heyətinin bir xidməti də ondan ibarətdir ki, onlar Azərbaycanda elmi kadr hazırlanmasında əhəmiyyətli rol oynayıblar (1, 55).

O dövrdə Azərbaycana gələn alimlər bunlar idi: akademiklər- N. Ya. Marr, V. V. Qordlevski, İ. İ. Meşşaninov, A. N. Samoyloviç, V. V. Bartold, professorlar- V. M. Sısoev, A. V. Baqriy, N. İ. Jüze, İ. N. Oşmarin, N. A. Romanskoviç, A. S. Qubaydulin, R. Şara və b. Cəmiyyətin işinə birbaşa A. N. Samoyloviç rəhbərlik edirdi. "Xəbərlər" in rusca nəşrində onun çox maraqlı məqaləsi nəşr olunmuşdu (6;1, 55). Akademik İ. İ. Meşşaninov arxeoloji qazıntılarda iştirak edir, Azərbaycan dili və dialektlərini öyrənmək məqsədilə təşkil edilən ekspedisiyalara rəhbərlik edirdi (8). Cəmiyyətin nəşr etdiyi məcmuələrdə V. Qordlevskinin (9, 5-33), V. M. Sısoevin (10, 108-125), V. M. Zummerin (11, 130), A. P. Fituninin (12, 185-209) maraqlı məqalələri nəşr edilmişdir (1, 56).

Sovet dönəminin ilk illərində Azərbaycan folkloru "Maarif və mədəniyyət", "Maarif işçisi", "Dan ulduzu", "Azərbaycanı öyrənmə yolu" jurnallarında, "Kommunist" qəzetinin əlavəsi olan "Xalq ədəbiyyatı həyatdan doğar" vərəqəsində, "Kommunist", "Bakinskiy raboçiy", "Yeni yol", "Azərbaycan kolxozçusu" və b. qəzetlərdə dərc olunurdu (1, 56).

O dövrdə Azərbaycan folklorunun toplanması ilə kənd müəllimləri də məşğul olmuşdur. Onların topladığı materiallar "Maarif işçisi" jurnalında nəşr edilmişdir. Belə müəllimlərdən Şəkidən Eyyub Şəkili, Naxçıvandan Z. Mustafazadə, Şuşadan Məmməd Əlizadə daha aktiv və geniş material toplaması ilə fərqlənmişdir. Onların topladığı nümunələrə "Maarif işçisi" jurnalının 1927-ci il buraxılışlarında geniş yer verilmiş, jurnalın həmin ildə çıxan 4, 5, 6, 7, 8 və s. saylarında çap olunmuşdur (1, 56).

Azərbaycan folklorunun Sovet dönəminin ilk illərində nəşri, tədqiqi və təbliği sahəsində böyük əməyi olan alimlərdən biri də professor A. V. Baqridir (1891-1949). A. V. Baqri Qafqaz xalqalrının folkloruna aid zəngin biblioqrafik göstərici tərtib edib. Qeyd olunur ki, "Qafqaz universitetlərində şifahi xalq ədəbiyyatı dərslərini deyən müəllimlər yerli folkloru öyrənmədən bu dərsi deyə bilməzlər. Mənim bu sahədə başladığım qrup dərsləri tələbələr üçün uyğun olan biblioqrafik vəsaitlərin olmaması səbəbindən çətinliklə qarşılaşdı. Qafqazşünaslığa aid köhnə biblioqrafik göstəricilər isə indi (XX əsrin 20-ci illəri nəzərdə tutlur- A. X.) nadir biblioqrafiyalar sayılır" (15, 203).

P. Əfəndiyev "biblioqrafiya" nı dəyərləndirərək yazır: "A. V. Baqrinin tərtib etdiyi göstərici Azərbaycan xalqının adət və ənənələrini, etnoqrafiyasının, xüsusilə də folklorunun öyrənilməsi üçün çox mükəmməl biblioqrafik vəsaitdir" (1, 56).

## Ədəbiyyat

1. Efendiev P. Ş. İstoriya Azerbaydjanskoy folkloristiki. Avtoreferat doktorskoy dissertatsii. Baku, 1973, 118 s.

2. Zifeldt A. R. Deyatelnost "Obşestva obsledovaniya i izuçeniya Azerbaydjana" za 2 qoda, 2 noyabrya 1923 q. -8 noyabrya 1925 qoda. "İzvestiya Obşestva obsledovaniya i izuçeniya Azerbaydjana" sayı 1, Baku, 1925, str, 107-112.

3. Samoyloviç A. N. Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət, "Maarif və mədəniyyət" jurnalı, 1923, sayı 11,

4. İzvestiya Obşestva obsledovaniya i izuçeniya Azerbaydjana (İOOİA), 1925, sayı 1, s. 125.

5. "Azərbaycanı öyrənmə yolu" jurnalı, Bakı, 1928, sayı 1, s. 65.

6. Samoyloviç A. İ. Kavkaz i turetskiy mir. İOOİA, 1926, sayı 2.

7. "Maarif və mədəniyyət" jurnalı, Bakı, 1927, sayı 3, s. 47; sayı 11, s.79.

8. Meşşaninov İ. İ. Arxeoloqiçeskaya ekspeditsiya v Naqornıy Karabax, Naxkray, İOOİA, 1927, sayı 4.

9. Qordlevskiy V. Kara-koyunlu, İOOİA, 1927, sayı 4, s. 5-33.

10. Sısoev V. M. Poezdka v Şemaxinskiy uezd s arxeoloqiçeskoy tselyu, 1-12 may 1925, İOOİA, 1927, sayı 4, s. 108-125.

11. Zummer V. M. Moskovskoe soveşanie po izuçeniyu kulturı i iskusstva tyurkskix narodov, 3-4 fevralya 1927 q. İOOİA, 1927, sayı 4, s. 130.

12. Fituni A. P. İstoriya narodnıx leqend o klade Aleksandra Makedonskoqo v Şirvane, İOOİA, 1927, sayı 4, s. 185-209.

13. Baqriy A. V. El hekayələri haqqında, "Xalq müəllimi", 1924, sayı, 1.

14. Baqriy A. V. Xalq məsəlləri haqqında, "Maarif işçisi" jurnalı, Bakı, 1926, sayı 1.

15. Narodnaya slovesnost Kavkaza (Materialı dlya biblioqrafiçeskoqo ukazatelya prof. A. V. Baqriya), İzvestiya Vostoçnoqo fakulteta AQU imeni V. İ. Lenina, Vostokovedenie, t. 1. Baku, 1926, s. 203.

16. Baqriy A. V. K voprosu o putyax rasprostroneniya leqend o mudrom Solomone, İzvestiya Vostoçoqo otdeleniya AQU im. V. İ. Lenina, t. 4. 1926.

17. Baqriy A. V. Materialı po biblioqrafii Kafkaza (K voprosu o bıte jenşin Kafkaza), İzvestiya AQU im. V. İ. Lenina, Vostokovedenie, 1928, t. 2. s. 1-44.

18. Literaturnıy seminariy, (iz otçeta A. V. Baqriya) İzvestiya Vostoçoqo otdeleniya AQU im. V, İ, Lenina, t. 2. Baku, 1928, s. 5.

19. Baqriy A. V. K voprosu ob izuçenii azerbaydjanskix skazok, İzvestiya Vostoçoqo otdeleniya AQU im. V, İ, Lenina, t. 4, 1929,.

20. Baqriy A. V. Folklor Aerbaydjana i prileqayuşix stran, t. 1. Baku, 1930.

21. Baqriy A. V. Folklor Azerbaydjana i prileqayuşix stran, t. 2. Baku, 1930.

22. Baqriy A. V. Folklor Azerbaydjana i prileqayuşix stran, t. 3, Baku, 1930.

23. Subxanverdixanov A. Pereçen i kratkoe izlojenie materialov po folkloru narodov Azerbaydjana i prileqayuşix stran, iz naslediya L. Lopainskoqo, İOOİA, sayı 4, 1927, s. 223-241.

24. Əfəndiyev P. Sovet hakimiyyətinin ilk illərində fəaliyyət göstərən Azərbaycam folklorşünasları, V. İ. Lenin adına APİ-nin elmi əsərləri, XI seriya, 1968, sayı 5.